State Tourism Agency
of the Republic of Azerbaijan

azerbaijan
TOURISM BOARD

# İşgüzar tədbirlər üzrə tərəfdaşlar üçün

## *B2B seminarları və şəbəkələşmə platformaları (2026)*

**Versiya 1.0**
**Ümumi səhifə sayı: 9**

Bu sənəd (əlavə və qoşmalar daxil olmaqla) Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin (DTA) və Azərbaycan Turizm Bürosunun (ATB) müstəsna istifadəsi üçün hazırlanmışdır. Sənəd yalnız təqdim edildiyi məqsəd üçün nəzərdə tutulur. DTA və ya ATB-nin əvvəlcədən verilmiş yazılı razılığı olmadan, bu sənədin və ya onun hər hansı hissəsinin çoxaldılması, yayılması, köçürülməsi, istinad olunması və ya üçüncü tərəflərə açıqlanması qadağandır. DTA/ATB bu sənədin təyinatından başqa hər hansı məqsəd üçün istifadə edildiyi və ya icazəsiz digər şəxslərə açıqlandığı təqdirdə hər hansı məsuliyyət daşımır.

## MALT Congress (Meetings Arabia & Luxury Travel)

**Tarix:** 11–12 fevral 2026

**Ölkə:** Birləşmiş Ərəb Əmirlikləri

**Tədbir məkanı:** Təyin olunmayıb

**Region:** Yaxın Şərq və Fars körfəzinin ərəb ölkələri

**Seqment:** MICE, korporativ və lüks səyahət







**MALT Congress** Yaxın Şərq və Fars körfəzinin ərəb ölkələrindən seçilmiş aparıcı təchizatçıları bir araya gətirən, biznes və lüks səyahətə yönəlmiş prestijli tədbirdir. Konqres MICE, korporativ, biznes və lüks səyahət sahələrində fəaliyyət göstərən 150-dən çox seçilmiş təchizatçını, həmçinin Bəhreyn, Qətər, BƏƏ, Oman, Küveyt və Səudiyyə Ərəbistanından olan CEO-ları bir araya gətirir. Təchizatçılar 2026–2027-ci illər üçün qlobal biznes planlarının yekun təsdiqi və qərar qəbuletmə səlahiyyətinə malikdirlər. MALT Congress 14-cü dəfə 2026-cı ilin fevral ayında Birləşmiş Ərəb Əmirliklərində keçiriləcək.

[https://maltcongress.com/](https://maltcongress.com/)

## IMWF Forum (International MICE & Wedding Forum)

**Tarix:** 1–4 aprel 2026

**Ölkə:** Didim, Türkiyə

**Tədbir məkanı:** Anda Barut Collection

**Region:** Qlobal, Avropa, Türkiyə

**Seqment:** MICE, korporativ, toy təşkilatçıları







**International MICE & Wedding Forum** ən yaxşı MICE və toy təşkilatçılarını, hotelləri, aviaşirkətləri və korporativ brendləri bir araya gətirən biznes sammitidir. Tədbir birincidərəcəli təşkilatçılar tərəfindən hazırlanmış panellər və konfranslar, nahar və şam yeməkləri, həmçinin müxtəlif fəaliyyətlər vasitəsilə ünsiyyət və əlaqə qurmaq üçün çoxsaylı imkanlar təqdim edir. IMWF 9-cu dəfə 2026-cı ilin aprel ayında Didimdə keçiriləcək.

https://www.imwf.com/

## DWP Congress (Destination Wedding Planners Congress)

**Tarix:** 22–24 aprel 2026

**Ölkə:** Makao, Çin

**Tədbir məkanı:** Sands Resorts Macao

**Region:** Qlobal

**Seqment:** Toy təşkilatçıları və tədbir agentlikləri






**DWP Congress** dünyanın ən böyük B2B platformalarından biridir. Tədbir dünyanın müxtəlif ölkələrindən aparıcı destinasiya və lüks toy təşkilatçılarını bir araya gətirir, onları qlobal miqyasda ən prestijli məkan, hotel, destinasiya toyları üzrə istiqamətlər, həmçinin etibarlı brend və destinasiya toy təchizatçıları ilə əlaqələndirir, əməkdaşlıq və biznes imkanları yaradır. Toy yönümlü bu tədbir hər il fərqli destinasiyalarda keçirilir. Konqres növbəti dəfə 2026-cı ilin aprel ayında Makaoda baş tutacaq.

https://dwpcongress.com/

## MILT Congress (MICE India & Luxury Travel Congress)

**Tarix:** 23–24 iyul 2026

**Ölkə:** Hindistan

**Tədbir məkanı:** Təyin olunmayıb

**Region:** Hindistan

**Seqment:** MICE, korporativ, toy təşkilatçıları






**MILT Congress** Hindistanın müxtəlif bölgələrindən MICE və lüks səyahət sahəsində 120-dən çox seçilmiş təchizatçını bir araya gətirir. Tədbirdə bankçılıq, sement, boya, IT və farmasevtika sektorlarından Hindistanın aparıcı korporativ təchizatçıları, eləcə də səyahət agentlikləri və destinasiya toy təşkilatçıları iştirak edir. Sözügedən təchizatçılar 2025–2026-cı illər üçün səyahət planlarını yekun olaraq təsdiqləmək və qərar qəbul etmək səlahiyyətinə malikdirlər. İki gün davam edən tədbir konfranslar, panel sessiyaları və yerli təchizatçılarla əvvəlcədən planlaşdırılmış 20 B2B görüşünü əhatə edir. Konqres 13-cü dəfə 2026-cı ilin iyul ayında Hindistanda keçiriləcək.

[https://miltcongress.com/](https://miltcongress.com/)

## EPEX (Experiential Planner Expo)

**Tarix:** 2–3 sentyabr 2026

**Ölkə:** Dubay, Birləşmiş Ərəb Əmirlikləri

**Tədbir məkanı:** Grand Hyatt Exhibition Center

**Region:** Yaxın Şərq, Körfəz ölkələri, Hindistan, MDB ölkələri

**Seqment:** MICE, toy təşkilatçıları, tədbir agentlikləri







**Experiential Planner Expo 2026** MICE və destinasiya toyları sənayesi üçün nəzərdə tutulmuş aparıcı B2B sərgi və şəbəkələşmə tədbiridir. İki gün davam edən EPEX beynəlxalq tədbir təşkilatçılarını, hotel brendlərini, destinasiya və konqres bürolarını, məkanları, destinasiya üzrə idarəetmə şirkətlərini və təchizatçıları xüsusi seçilmiş görüş, sessiya və şəbəkələşmə imkanları çərçivəsində bir araya gətirir. Tədbir tərəfdaşlıqların qurulmasını təşviq etməyi, təcrübə əsaslı tədbirlər sahəsində ən son trendləri və innovasiyaları nümayiş etdirməyi, həmçinin strukturlaşdırılmış B2B görüşləri vasitəsilə seçilmiş təchizatçıları sərgi iştirakçıları ilə əlaqələndirməyi hədəfləyir. EPEX 11-ci dəfə 2026-cı ilin sentyabr ayında Dubayda, Birləşmiş Ərəb Əmirliklərində keçiriləcək.

https://www.experientialplanner.com/epex/

## KBLT Congress (Kingdom Business & Luxury Travel Congress)

**Tarix:** 15–16 sentyabr 2026

**Ölkə:** Ər-Riyad, Səudiyyə Ərəbistanı Krallığı

**Tədbir məkanı:** Təyin olunmayıb

**Region:** Səudiyyə Ərəbistanı, Körfəz ölkələri

**Seqment:** MICE, korporativ, tədbir agentlikləri






**KBLT Congress** Səudiyyə Ərəbistanının müxtəlif bölgələrindən MICE, korporativ, biznes və qrup səyahəti, eləcə də məhdud sayda lüks səyahət təchizatçılarını idarə edən 100-dən çox seçilmiş şirkəti bir araya gətirən qapalı formatlı biznes platformasıdır. Bu iştirakçılar 2026–2027-ci illər üzrə qlobal biznes və lüks səyahət planlarını yekun olaraq təsdiqləmək və qərar qəbul etmək səlahiyyətinə malikdirlər. KBLT Congress hotellər, destinasiya idarəetmə şirkətləri, kruiz agentlikləri və aviaşirkətlər daxil olmaqla qlobal səyahət təchizatçıları ilə Səudiyyə Ərəbistanının aparıcı təchizatçıları arasında strateji tərəfdaşlıqların formalaşmasına imkan yaradır və Krallığın yüksək səviyyəli səyahət təcrübələrinə artan tələbatını və infrastruktur inkişaf istiqamətlərini dəstəkləyir. KBLT Congress 5-ci dəfə 2026-cı ilin sentyabr ayında keçiriləcək.

https://kbltcongress.com/

## 65th Annual ICCA Congress

**Tarix:** 8–11 noyabr 2026

**Ölkə:** Panama şəhəri, Panama

**Tədbir məkanı:** Təyin olunmayıb

**Region:** Qlobal

**Seqment:** Assosiasiyalar, konvensiya büroları, konvensiya mərkəzləri, tədbir agentlikləri






**ICCA** beynəlxalq assosiasiya görüşləri sahəsində qlobal əlaqə və əməkdaşlıq platformasıdır. Assosiasiyanın illik konqresləri dünyanın müxtəlif ölkələrindən olan beynəlxalq assosiasiyaları, konvensiya bürolarını, konvensiya mərkəzlərini, həmçinin turizm bürolarını və turizm qurumlarını bir araya gətirir. Dörd gün davam edən tədbir əsas plenar iclasları, panel və müzakirə sessiyalarını, interaktiv görüş və təlimləri, həmçinin dinamik əyləncə və şəbəkələşmə proqramlarını əhatə edir. ICCA-nın 65-ci konqresi 2026-cı ilin noyabr ayında Panamada keçiriləcək.

https://www.iccaworld.org/event/65th-icca-annual-congress-2026

## MICE Excellence

**Tarix:** 12–14 noyabr 2026

**Ölkə:** Moskva, Rusiya

**Tədbir məkanı:** Hyatt Regency Petrovsky Park Moscow

**Region:** Rusiya, MDB ölkələri

**Seqment:** MICE, korporativ






**MICE Excellence** MICE və korporativ sektorlarına həsr olunmuş, üç gün davam edən aparıcı şəbəkələşmə və biznes tədbiridir. Forum Rusiya və MDB regionundan 200-dən çox peşəkar təchizatçını və ümumilikdə 800-dən artıq iştirakçını bir araya gətirəcək. Biznes imkanlarının və mühüm əlaqələrin qurulmasını təşviq etmək məqsədi daşıyan tədbir müzakirələr, danışıqlar və strateji tərəfdaşlıqlar üçün platforma təqdim edir. MICE Excellence 12–14 noyabr 2026-cı il tarixlərində Moskvada keçiriləcək.

https://www.mice-excellence.ru/